

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 225 (23.387)

29 noyabr 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Slovakiya Respublikasının Xarici İşlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib:

– Bizim uğurla əməkdaşlıq edə biləcəyimiz çoxsaylı məsələlər var. Sözsüz ki, biz yaxşı siyasi əlaqələrə malikik. Lakin biz hələ də çox aşağı olan ticarət dövriyyəmizin artması üzərində diqqəti cəmləşdirməli və bunu etmək üçün yollar axtarmalıyıq.

Slovakiyanın Xarici İşlər və Avropa naziri Miroslav Layçak Azərbaycanın regiondakı strateji mövqeyini çox yüksək qiymətləndirdiklərini bildirib.

Görüşdə Azərbaycan-Slovakiya hökumətlərarası birgə əməkdaşlıq komissiyasının yaradılması, kənd təsərrüfatı, əczaçılıq, enerji, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında mədəniyyət sahəsində səmərəli fəaliyyətlərinə görə:

Qasımova Rahilə Məmmədbağır qızı

Məmmədova Tünzalə Məmmədəli qızı – **"Əməkdar mədəniyyət işçisi"** fəxri adı ilə;

Dilanova Tünzalə Zakir qızı

Məmmədova Samirə Füzuli qızı

Mürşüdova Aygün Vahab qızı

Nuri Xavər Hüseyn qızı

Yusifov Natiq Hüseyn oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 noyabr 2019-cu il*

## "Sabahın tədqiqatçıları" layihəsinin təqdimatı olub

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və AMEA Naxçıvan Bölməsi tərəfindən "Sabahın tədqiqatçıları" layihəsinin təqdimatı keçirilib.***

Təqdimat mərasimində bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edib, muxtar respublikada səmərəli fəaliyyət üçün yaradılan imkanlar və elmi-tədqiqat institutları barədə məlumat verib, bu layihənin əhəmiyyətini yüksək qiymətləndirib.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov layihə çərçivəsində görüləcək işlərdən danışıb. Bildirilib ki, layihənin əsas məqsədi ümumtəhsil müəssisələrinin IX-XI siniflərində təhsil alan şagirdlərin elmi axtarışlara sövq edilməsi, onların intellektual potensiallarının və yaradıcılıq fəaliyyətinin stimullaşdırılması, elmi-tədqiqat işinə meyli olan istedadlı şagirdlərin aşkar edilməsidir.

Nazir qeyd edib ki, layihənin uğurlu tətbiqi üçün Naxçıvan şəhərində yerləşən ümumtəhsil məktəbləri pilot məktəblər olaraq müəyyənləşdirilib. Layihədə iştirak edəcək 50 şagird 5 istiqamət – Azərbaycan dili, tarix, fizika, kimya və biologiya üzrə tədqiqat aparacaqlar.

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun direktoru Tofiq Əliyev, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin şöbə müdiri Abdulla Əsgərov və Təbii Ehtiyatlar İnstitutunun əməkdaşı Günel Məmmədova müxtəlif mövzularda çıxışlar edib, layihəsinin tətbiqi ilə bağlı fikirlərini bildiriblər.



Təqdimatda şagirdlərə bölmənin "Xəbərlər" və digər jurnalları hədiyyə edilib. Həmçinin iştirakçılar və layihədə iştirak edəcək şagirdlər tədqiqat aparılacaq laboratoriyalarla tanış olub, bölmənin alimləri ilə elmi himayəyə götürülən şagirdlərin ilk məşğələsi də keçirilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Əhalinin sağlamlığı üzrə ardıcıl tədbirlər həyata keçirilir

***Muxtar respublikada əhalinin sağlamlığının qorunması və sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsasını təşkil edir.***

Ümummilli liderimiz Heydər Əliyevin ***"Azərbaycan Respublikasının ən qiymətli sərvəti onun insanlarıdır"*** fikri əsas götürülərək muxtar respublikada iqtisadi fəaliyyətin bütün sahələrində həyata keçirilən mühüm tədbirlərlə yanaşı, səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi də əhalinin sağlamlığının qorunmasına geniş imkanlar yaradıb. Belə ki, təkcə 2010-cu ildən 1 yanvar 2019-cu il tarixədək Naxçıvan Muxtar Respublika Xəstəxanası, Kardioloji Mərkəz, Yoluxucu Xəstəliklər Mərkəzi, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Babək, Ordubad, Kəngərli və Sədərək Rayon Mərkəzi xəstəxanaları olmaqla, ümumilikdə, 13 xəstəxana, 37 həkim ambulatoriyası, 53 feldşer-mama məntəqəsi və digər səhiyyə obyektləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Səhiyyənin inkişafı istiqamətində Naxçıvan Dövlət Universitetində və Naxçıvan Tibb Kollecində ali və orta ixtisaslı tibb kadrlarının hazırlanması davam etdirilir. Bununla yanaşı, bu sahədə çalışanların bilik və təcrübələrinin artırılması məqsədilə çoxsaylı seminarların, konfransların keçirilməsi və tibb işçilərinin kurslara göndərilməsi ümumi inkişafa stimul yaradıb.

Muxtar respublikada əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 31 may tarixli Sərəncamına uyğun olaraq 2018-ci ilin yanvar ayından Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır.





İnsanların sağlamlığının qorunmasında keyfiyyətli ərzaq məhsulları ilə yanaşı, içməli su təminatı da mühüm rol oynayır. Su ilə yayıla bilən xəstəliklərin azaldılması və su mənbələrinin təmizlənməsi inkişaf edən ölkələrdə əhəmiyyətli sağlamlıq tədbiridir.

Bu istiqamətdə muxtar respublikada yeni kaptajlar tikilmiş, içməli su xətləri çəkilmiş, mövcud kaptajlar və içməli su xətləri bərpa olunmuşdur. Ötən dövrdə Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksi, Naxçıvan şəhərdaxili, Tumbul, Qaraçuq, Qaraxanbəyli, Hacıniyyət və Bulqan kəndlərində içməli su təchizatı və kanalizasiya sistemləri istifadəyə verilmişdir.

Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin birinci mərhələsi, Babək rayonunun Şəkərabad, Şıxmahmud və Xəlilli kəndlərinin, Culfa və Şahbuz şəhərlərinin, eləcə də ətraf kəndlərinin içməli su və kanalizasiya sistemləri istifadəyə verilmişdir.

Muxtar respublikada ekoloji sabitliyin təmin olunması və ətraf mühitin qorunması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Geniş vüsət almış yaşıllaşdırma tədbirlərinin nəticəsi olaraq təkcə 2010-cu ildən 1 yanvar 2019-cu il tarixədək muxtar respublikada 4820 hektara yaxın sahədə meşəsalma və meşəbərpa işləri aparılmışdır ki, bu da əhalinin sağlamlığının qorunmasında mühüm rol oynayır.

Əhalinin sağlamlığının qorunması üzrə həyata keçirilən mühüm tədbirlər əsas demoqrafik göstərici olan doğulanda gözlənilən ömür uzunluğunun artımına da ciddi təkan vermişdir. Belə ki, 2010-cu ildə muxtar respublikada doğulanda gözlənilən ömür uzunluğu 75,1 yaş, o cümlədən kişilərdə 73,2, qadınlarda isə 76,9 yaş təşkil edirdisə, 2018-ci ildə bu göstərici 78,6, o cümlədən kişilərdə 76,6, qadınlarda isə 80,5 yaş səviyyəsində olmuşdur.

Bu istiqamətdə cari ilin yanvar-oktyabr aylarında da mühüm tədbirlər həyata keçirilmiş, Şərur rayonunun Kərimbəyli və Muğanlı, Babək rayonunun Kültəpə, Ordubad rayonunun Dəstə kəndlərində həkim ambulatoriyası binalarının, Şərur rayonunun Alışar və Babək rayonunun Gülşənabad kəndlərində feldşer-mama məntəqələrinin tikintisi, Şərur Rayon Uşaq Xəstəxanasının yenidən qurulması, Şərur Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmiri başa çatdırılmışdır. Bundan əlavə, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin binasının yenidən qurulması da həyata keçirilmişdir.

Şərur rayonunun Məmmədsabir, Ordubad rayonunun Vənənd, Şahbuz rayonunun Ağbulaq kəndlərində həkim ambulatoriyası binalarının tikintisi, Kəngərli rayonunun Böyükdüz kəndində həkim ambulatoriyası binasının yenidən qurulması davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 25 yanvar tarixli Sərəncamı ilə Şərur rayonunda, 2019-cu il 5 iyul tarixli Sərəncamı ilə Kəngərli rayonunda və 2019-cu il 31 oktyabr tarixli Sərəncamı ilə Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır.

Bundan əlavə, 2020-ci ildən etibarən icbari tibbi sığorta sisteminin Naxçıvan Muxtar Respublikasının bütün ərazisində tətbiqinə imkan verəcək hazırlıq işlərinin görülməsi, tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, habelə əhalinin sağlamlığının etibarlı qorunmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 18 mart tarixli Fərman imzalamışdır.

Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi istiqamətində cari ilin ötən dövründə Şərur rayonunun Zeyvə və Düdəngə kəndlərində içməli su şəbəkəsi istifadəyə verilmiş, Babək, Ordubad, Kəngərli və Sədərək rayon mərkəzlərində və ətraf kəndlərdə içməli su təchizatı və kanalizasiya sistemlərinin, Şərur rayonunda sutəmizləyici qurğunun tikintisi davam etdirilmişdir.

Bundan əlavə, Şahbuz rayonunun Türkeş və Babək rayonunun Gülşənabad kəndlərində içməli su xətlərinin çəkilişi başa çatdırılmış, Ordubad rayonunun Vənənd kəndində içməli su xəttinin çəkilişi davam etdirilmişdir.

Cari ilin yaz əkini dövründə 183,8 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 107 mindən artıq ağac və gül kolu əkilmişdir. Babək rayonunda Naxçıvan Yaşıllaşdırma Xidmətinin tingçilik sahəsi üçün yeni kompleks və "İqlim otağı", ətraf mühitin mühafizəsi məqsədilə Sədərək rayonunda Su monitorinq laboratoriyası yaradılmışdır.

Bütün sahələrdə qarşıya qoyulmuş hədəflərə nail olmaq üçün həyata keçirilən məqsədyönlü tədbirlər əhalinin sağlamlığına və sosial müdafiəsinin gücləndirilməsinə yeni imkanlar yaratmaqla yanaşı, muxtar respublikamızın davamlı inkişafını da sürətləndirmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

# Festivallar şəhəri — NAXÇIVAN



*Dünyanın bir çox ölkələrində kütləvi bayram, musiqi, teatr, kino sənətinə aid nailiyyətlərin nümayiş etdirilməsi festivallar vasitəsilə həyata keçirilir. Onlar həm iri, bağlı məkanlarda, həm də müasir formatda, açıq havada – tarla, meydan, park və digər görməli yerlərin tarixi interyerlərində təşkil edilir. XX əsrdən başlayaraq beynəlxalq festivallar populyarlıq qazanıb. Təbii ki, hər bir ölkə özünün təbii ehtiyatlarını, sahib olduğu mədəni zənginliyini dünyaya nümayiş etdirmək üçün müəyyən metod və vasitələrdən istifadə edir. Belə festivalların ən unikal və orijinal forması məhz Naxçıvanda keçirilən və ənənə şəklini alan festivallardır.*



Azərbaycanın qədim yaşayış və mədəniyyət mərkəzlərindən olan Naxçıvan diyarı xalqımızın tarixi keçmişini özündə ən parlaq şəkildə təcəssüm etdirir. Bu torpağın tarixini araşdırdıqca yeni-yeni yaşayış məntəqələri, tarixi abidələr, sənətkarlıq əsərləri və bunun kimi minlərlə mədəniyyət nümunələri diyarımızın tarixi varlığının qədim dövrlərə söykəndiyini sübut edir. Xüsusilə qeyd etmək lazımdır ki, keçirilən festivallar bu torpağın qədim adət-ənənələrini bu gün də yaşatmaq və gələcək nəsillərə ötürmək kimi məsuliyyətli bir missiya daşıyır.

Ümumilikdə, Naxçıvan şəhərində keçirilən festivallar kənd təsərrüfatı, elm, təhsil, mədəniyyət, yaradıcılıq və digər sahələri əhatə edir. Artıq ənənə halını alan bu tədbirlərdə muxtar respublika sakinləri həvəslə iştirak edirlər. Festivallar həm də qonaq qismində diyarımızı ziyarət edən xarici turistlərin və digər ölkə vətəndaşlarının yaddaşına gözəl təəssüratlarla həkk olunur.

Öncə onu qeyd etmək lazımdır ki, festivallar keçirilən zaman onun əhatə dairəsi tək həmin festivalın keçirildiyi məkanla kifayətlənmir. Bunun üçün, eyni zamanda şəhər müasir görünüşə, tarixi abidələrə və gəzməli yerlərə, muzeylərə, gözəl infrastruktura, gözoxşayan, müasir dizayna malik olmalıdır. Necə ki bu gün müasir Naxçıvan bütün bu sadaladığımız müsbət keyfiyyətlərin hamısını özündə cəmləşdirib.

Beləliklə, ötən 3-4 il ərzində Naxçıvanda keçirilən festivalların tarixçəsinə nəzər salaq.

### *“Bakı – 2015” ilk Avropa Oyunlarının Alov festivalı*

2015-ci il aprelin 27-də “Bakı – 2015” ilk Avropa Oyunlarının məşəli Naxçıvan şəhərinə gətirildi və burada Alov festivalı keçirildi. Minlərlə sakin məşəl estafetini alqışlarla müşayiət edərək, bu mötəbər tədbirin həyəcan və sevincini yaşadı. Yüksək səviyyədə təşkil olunan həmin festivalda istər yerli sakinlər, istərsə də xarici idmançılar və turistlər muxtar respublikada idmana göstərilən yüksək diqqət və qayğının bir daha şahidi oldular. Bu gün muxtar respublikada olimpiya idman kompleksləri, üzgüçülük, stend və sportinq atıcılıq mərkəzləri, stadionlar, şahmat və uşaq-gənclər idman məktəblərinin fəaliyyət göstərməsi bütün bunlara əyani misaldır.

### *“Arıçılıq məhsulları – bal festivalı”*

Bu gün muxtar respublikada kənd təsərrüfatının çox mühüm və gəlirli sahəsi olan arıçılığın inkişafına böyük diqqət yetirilir. Bunun nəticəsidir ki, “Arıçılıq məhsulları – bal festivalı”nın keçirilməsi artıq ənənə halını alıb. 2016-cı ildən başlayaraq hər il “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən festivala muxtar respublikamızın müxtəlif bölgələrindən olan arıçılar tərəfindən bal, arı südü, güləm, vərəmum və digər məhsullar çıxarılır. Bu cür festivalların keçirilməsi Naxçıvanın təbii sərvətlərinin dünyaya tanıdılması yolunda ən mühüm vasitələrdən biridir.

### *“Ailə təsərrüfatı məhsulları” festivalı*

Muxtar respublikanın kəndlərində yaradılan müasir infrastruktur, istehsal olunan məhsulların sərbəst bazara çıxarmaq imkanları bu sahənin inkişafına yüksək təsir göstərib. Yaradılan şəraitin nəticəsidir ki, ailə təsərrüfatlarının sayı getdikcə artır, ailə biznesi genişlənir. 2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan olunması bu sahəyə göstərilən diqqətin bariz nümunəsidir.

2017-ci ildən etibarən hər il “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Ailə təsərrüfatı məhsulları” festivalı keçirilir. Festivallara muxtar respublikanın bütün rayonlarından olan ailə təsərrüfatları tərəfindən müxtəlif çeşidli, həm də dövlət dəstəyi ilə nəfis şəkildə qablaşdırılmış yüzlərlə məhsul çıxarılır. Festival iştirakçılarına diyarımızın adı dillər əzbəri olan məhsulları – Naxçıvan qovurması, əriştəsi, yarması, kompotu, mürəbbələri, dərman bitkiləri, dadlı və keyfiyyətli meyvələri təqdim olunur. İştirakçısı olduğumuz bu festivallarda istər ailə təsərrüfatı sahiblərinin, istərsə də muxtar respublika sakinlərinin və xarici qonaqların yaradılan yüksək şəraitə görə təşəkkürlərinin də şahidi oluruq.

### *“Kətə” festivalı*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı muxtar respublikamızda milli və mənəvi dəyərlərimizin qorunub saxlanılmasına və təbliğ olunmasına hərtərəfli şərait yaradıb. Bu gün




diyarımızda xalq yaradıcılığının ən qədim sahələrindən sayılan süfrə mədəniyyətinin öyrənilməsi, inkişaf etdirilməsi və tanıdılması istiqamətində əməli işlər görülür. Milli mədəniyyətimizin, dəyərlərimizin, eləcə də mətbəximizin zənginliyinin kütlələrə geniş şəkildə nümayiş etdirildiyi “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən digər bir festival – “Kətə” festivalı 2017-ci ildən təşkil olunur. Bu cür festivalların keçirilməsi muxtar respublikamızda digər sahələrlə yanaşı, milli mətbəximizin, milli adət-ənənələrimizin gələcək nəsillərə ötürülməsi istiqamətində çox önəmli yer tutur.

### *“Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalı*

Yazının əvvəlində qeyd etdiyim kimi, əgər bir şəhər festivallar şəhəri adını qazanıbsa, həmin şəhərin bütün küçə, məhəllə, prospekt və infrastrukturu buna cavab verməlidir. Ölkə Prezidentinin və Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində bugünkü firavan və gözəl görkəminə qovuşan Naxçıvanda keçirilən daha bir mötəbər festival şahmat festivalıdır. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş builki şahmat festivalı Beynəlxalq Şahmat Federasiyasının təqviminə görə 9 ildir, keçirilən digər festivallarla müqayisədə yüksək səviyyədə təşkil olunan ən yaxşı festival kimi qeyd olunub. “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalında 14 ölkədən 356 şahmatçı iştirak edib. Onlar arasında 20 beynəlxalq qrossmeysterin, 15 beynəlxalq ustanın və 15 FİDE ustasının da yer alması Naxçıvanda beynəlxalq tədbirlərin təşkilatçılığının yüksək səviyyədə olmasının və diyarımıza dünyəvi marağın ilbəil artmasının göstəricisidir.

### *“Nakhchivan Colour Day” rəng festivalı*

Naxçıvanda gənclərə göstərilən diqqət və qayğı tarixin xüsusi bir səhifəsidir. Bu səhifələrə 2019-cu il iyun ayının 16-da Naxçıvanda keçirilən növbəti – “Nakhchivan Colour Day” rəng festivalı da yazıldı. Bu festival beşulduzlu “Duzdağ” otelin “Aquapark”ında keçirildi. “Color Fest” rəng paketləri, su savaşları (water fight), “Bubble Soccer”dən istifadə, “Duzdağ” otelə komfortlu transfer, hovuzkənarı



kokteyllər və ləziz yeməklər, hədiyyəli oyunlarla gənclərin marağına səbəb olan festival həm də onların asudə vaxtlarının əyləncəsinə çevrildi. Keçirilən tədbirlər, gənclər üçün yeni ideyaların ortaya çıxarılması onu deməyə əsas verir ki, gənclərin dövlət və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakı vacib məsələ kimi nəzərdə saxlanılmaqla yanaşı, mədəni istirahətlərinin təmin edilməsi istiqamətində də işlər görülür.

### *“Hünər” XII Vətənpərvərlik Mahnıları Festivalı*

Gənclər və İdman Nazirliyi tərəfindən ənənəvi olaraq keçirilən “Hünər” Vətənpərvərlik Mahnıları Festivalı 12-ci sayını 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilmiş Naxçıvan şəhərində reallaşdırıb. Festival Azərbaycanı tərənnüm edən vətənpərvərlik ruhlu mahnıların geniş təbliğ edilməsi və istedadlı gənclərin üzə çıxarılması, onların həvəsləndirilməsi məqsədilə təşkil edilir. Naxçıvan şəhərində fəaliyyət göstərən “Gənclik” Mərkəzində keçirilən festivala muxtar respublikamızın şəhər və rayonlarından 18-29 yaşlı 40 istedadlı gənc cəlb olunmuşdu. Bu cür tədbirlər diyarımızda istedadlı gənclərin üzə çıxarılmasında mühüm əhəmiyyət daşıyır.

### *“Göyçə” festivalı*

Qədim Naxçıvan zəngin mədəniyyəti, çoxəsrlik tarixi ilə yanaşı, bu torpaqda yetişən nemətləri ilə də dünyada tanınır. Bu diyarın istər təbii duzu və mineral bulaqları, istərsə də barlı-bəhərli bağlarında yetişən meyvələri süfrələrimizin bəzəyinə, bərəkətinə çevrilib.

2016-cı ildən başlayaraq keçirilən “Göyçə”



festivalı muxtar respublikada bağçılıq və meyvəçiliyin inkişaf etdirilməsi, təbii-coğrafi şəraitə uyğun olaraq meyvə bağlarının və yaşıllıq zolaqlarının salınmasına göstərilən diqqətin təzahürüdür.

Qeyd edək ki, ötən 3-4 il ərzində “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində həm də “Milli geyimlər”, “Yaradıcı gənclər”, “Yaradıcı əllər”, “İstedadlı uşaqlar”, “Plov”, “Yallı”, “Naxçıvan çörəkləri” kimi müxtəlif festivallar da təşkil olunub.

*Keçirilən bu festivallar, ümumilikdə, muxtar respublikamızın, eləcə də onun turizm potensialının təbliğinə xidmət etməklə yanaşı, həm də sakinlərin sosial güzəranının daha da yaxşılaşdırılmasına və mədəni istirahətlərinin təmin edilməsinə yönəldilib. Bu festivallarla həm də biz öz tariximizə, keçmişimizə yaxından bələd olur, qədim adət-ənənələrimizi dünəndən bu günümüzə və sabaha daşıyırıq. Quruculuğu, abadlığı, firavanlığı ilə gözoxşayan festivallar şəhəri, toy-büsat qapısı Naxçıvan, səninlə qürur duyuruq.*

**Qəzənfər BAYRAMOV**
***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşı***

***Bu məqalə “Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü” mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

## Tələbələr istehsalat təcrübəsində

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinə hamiliyə verilmiş “Naxçıvan” Universitetinin İqtisadiyyat ixtisasında təhsil alan tələbələrin istehsalat təcrübələri ilə əlaqədar tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə nazirliyin şöbə rəisi Zahid Qənbərov açaraq bildirib ki, Ali Məclis Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamı kadr potensialının formalaşması, yüksək intellektli mütəxəssislərin hazırlanması baxımından böyük əhəmiyyət kəsb edir.

Universitetin İdarəetmə fakültəsinin dekanı Naim Cahidzadə bildirib ki, tələbələrin əldə etdikləri nəzəri biliklərin praktika ilə uyğunlaşdırılması öz səmərəsini verməkdədir.

Nazirliyin əməkdaşı Zeynal Hüseynov Azərbaycan Respublikasında vergi qanunvericiliyi və vergi sistemi haqqında tələbələrə geniş məlumat verib.

Sonra tələbələr nazirliyin müvafiq şöbələrinin və bölmələrinin fəaliyyət istiqamətləri ilə tanış olublar.

* * *

Naxçıvan Dövlət Universitetinin





Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi ixtisasının IV kurs tələbələri Dövlət Nəqliyyat Xidmətində və aid təşkilatlarda təcrübə keçirlər. Təcrübəçi tələbələrə ictimai nəqliyyat vasitələri sürücülərinin dayanma, durma və parklanma qaydalarına riayət etməsinin təmin olunması, eləcə də avtobuslar üçün dayanacaq məntəqələri və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair tələblər barəsində ətraflı məlumat verilib.

Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin təmir sexlərində olan tələbələrə sərnişindaşıma fəaliyyəti göstərən avtobuslara gündəlik texniki baxışın keçirilməsi və yarana biləcək nasazlığın aradan qaldırılması yolları əyani şəkildə göstərilib.

Naxçıvan şəhərindəki Avtovağzal Kompleksində avtobusların hərəkət cədvəllərinə riayət edilməsi, hər bir avtobusun sərnişin tutumundan səmərəli istifadə olunması, avtobusların hərəkətinin tənzimlənməsi, sərnişinlərdə biletlərin olmasına, gedişə və baqajın daşınmasına görə ödənişin düzgünlüyünə nəzarətin həyata keçirilməsi tədbirləri barədə danışılıb. Tələbələr avtovağzalın fəaliyyəti haqqında geniş məlumat əldə ediblər. Onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Dövlət Nəqliyyat Xidmətində və aid təşkilatlarda noyabr ayının 12-dən keçirilən növbəti istehsalat təcrübəsi dekabrın 28-dək davam edəcək.

**Xəbərlər şöbəsi**

Yeni nəşrlər

## Azərbaycan ədəbiyyatı tarixinin müasir və mükəmməl dövrləşdirmə konsepsiyası




*Çoxəsrlik tarixə və zəngin ənənələrə malik, ən əsası Azərbaycançılıq ideologiyasının ədəbi manifesti olan, həm ümummilli idealları əks etdirən, həm də bəşəri əhəmiyyət kəsb edən Azərbaycan ədəbiyyatı müxtəlif alimlər tərəfindən fərqli baxışlar əsasında dövrləşdirilib. Lakin ədəbiyyatşünaslıqda bütün bu fərqli prinsipləri ümumiləşdirəcək, bir sıra mühüm əlavələrlə də zənginləşdirə biləcək mükəmməl bir dövrləşdirmə konsepsiyasının işlənib hazırlanmasına ciddi ehtiyac vardı. AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin "Elm" nəşriyyatında çap olunmuş "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" adlı monoqrafiyası belə bir zərurətdən yaranmışdır.*

Öncə onu qeyd edim ki, 452 səhifəni əhatə edən monoqrafiya bu mövzuya həsr olunmuş ilk irihəcmli və sistemli, uzun illərin ədəbi təcrübələrinə əsaslanan və müxtəlif konsepsiyaların ümumiləşdirilməsi nəticəsində ortaya qoyulan bir tədqiqat əsəri kimi Azərbaycan ədəbiyyatşünaslığına əvəzolunmaz bir töhfədir. Monoqrafiyanın elmi redaktoru, AMEA-nın müxbir üzvü Ertəgin Salamzadədir.

Monoqrafiyanın "Giriş"ində Azərbaycan ədəbiyyatının mütərəqqi xüsusiyyətləri sadalanır və bədii ədəbiyyatın mərhələlər üzrə əsas mövzuları və qəhrəmanları, xalqın taleyinə və qəhrəmanlıq mübarizəsinə baxışın ifadə edilməsi, təkcə bir ölkənin həyatı deyil, çox geniş miqyasda insanlığın taleyi və gələcəyi üçün axtarışlar və söz xəzinəmizi dünya arenasına çıxaran "İsgəndərnamə" kimi tapıntılar diqqət mərkəzinə çəkilir. Müəllif söz mülkünün sultanı, ölməz əsərləri, böyük ideallar ilə dünyanı fəth etmiş Nizami Gəncəvini elə "sözün geniş mənasında, dünya ədəbiyyatının Makedoniyalı İsgəndəri" hesab edir. Dünya epos ənənəsində salnaməçilik, səfərnamə və ya cəngavərlik motivləri üstünlük təşkil etməsinə görə, bədiilik meyarlarına əsasən mühüm ictimai məzmun ifadə edən "Kitabi-Dədə Qorqud" dastanı akademikin fikrincə, "dünya epos sənətinin şah əsəri"dir.

Yeni nəşrdə Orxon-Yenisey abidələrindən, ərəbdilli Azərbaycan ədəbiyyatından yazılı ədəbiyyatımızın bünövrəsi kimi XI-XII əsrlər Şərq intibahının inkişafından, XVI əsrdən başlayaraq (Məhəmməd Füzulinin "Şikayətnamə" əsəri nəzərdə tutulur) XVII-XVIII əsrlərdə həyatiliyə, realist təsvirə güclənən meyildən, XIX əsrdə maarifçilikdən, XX əsrin əvvəllərində milli istiqlal uğrunda mübarizədən bəhs edilir. Həmin dövrdə romantizmin xoşbəxt gələcək arzuları, sovet dövrü Azərbaycan ədəbiyyatında yaranan vətənpərvərlik mövzulu əsərlər, XX əsrin 70-80-ci illərində ümummilli ideyalar, ana dili uğrunda mübarizə, müəyyən səviyyədə azadlıq düşüncəsinin təsvir və tərənnümü də monoqrafiyada əsas yer tutur. Eyni zamanda müstəqillik dövrünün realizm və romantizm cərəyanları ilə yanaşı, dekadentizm, postmodernizm, magik realizm və digər ədəbi axınların Azərbaycançılıq ideologiyasına əsaslanan əsərləri ədəbiyyatın başlıca obyekt və istiqamətləri olaraq göstərilmişdir.

Monoqrafiyanın "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi üzrə axtarışlar" adlı hissəsində orta və XVIII, XIX və XX əsrlərdə yaranmış təşkirələrdən başlayaraq "Azərbaycanda milli ədəbiyyat tarixi yaratmağın ilk təşəbbüskarı"– görkəmli yazıçı, tarixçi alim və ictimai xadim Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" kitabında verilmiş sistemli ədəbiyyat xülasəsi, Mirzə Fətəli Axundzadənin XIX əsr Azərbaycan ədəbiyyatı tarixçiliyinə gətirdiyi analitik-nəzəri təhlil istiqaməti, Firudun bəy Köçərlinin "Azərbaycan tatarlarının ədəbiyyatı" və "Azərbaycan ədəbiyyatı tarixi materialları" araşdırmalarında dövrləşdirmə məsələsində klassik elmi ənənədən yaradıcı şəkildə bəhrələnməsi, İsmayıl Hikmətin, Yusif Vəzir Çəmənzəminlinin, Əmin Abidin, Salman Mümtazın, Əli Nazimin, Fuad Köprülünün, Bəkir Çobanzadənin müxtəlif əsərləri Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi baxımından dəyərləndirilmişdir. Bu hissədə, çox haqlı olaraq, "XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişaf tarixinin dövrləşdirilməsi axtarışları və təşəbbüsləri mərhələsi" kimi dəyərləndirilmişdir.

Tanınmış akademikin fikrincə, "Ədəbiyyat tarixçiliyində yeni mərhələ" 1943-cü ildən 1991-ci ilə qədər davam etmiş elmi-nəzəri prinsiplər əsasında çoxcildli Azərbaycan ədəbiyyatı tarixlərinin akademik nəşrlərinin hazırlandığı, çox mühüm elmi hadisələrlə dolu bir dövrdür. 1943-1944-cü illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan Filialı Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəşr etdirdiyi "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin plan-prospektinə ciddi dəyişikliklər və əlavələr etmiş, Azərbaycanın ilk Xalq şairi, akademiyanın ozamankı vitse-prezidenti Səməd Vurğunun rəhbərliyi ilə hazırlanmış üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi", Əliyar Səfərli və Xəlil Yusifovun "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı" dərsliyi və digər əsərlər əhəmiyyətliyi və təbii ki, dövrün tələblərinin nəticəsi olaraq meydana çıxan nöqsanları ilə saf-çürük edilmişdir. Bu dövr "ədəbiyyatşünaslıqda Azərbaycan ədəbiyyatı tarixinin elmi prinsiplərinin formalaşması mərhələsi" kimi xarakterizə edilmişdir.

"Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin elmi təsnifatına doğru" adlı hissədə müstəqillik dövründə artıq ideoloji meyarlar əsasında hazırlanmış əvvəlki dövrləşdirmə təşəbbüslərinin qəbuledilməzliyi və obyektiv elmi prinsiplər əsasında yenidən dövrləşdirmənin zəruriliyi nəticəsində 1994-cü ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Yaşar Qarayevin rəhbərliyi ilə keçirilmiş "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi" müşavirəsindən bəhs olunur. Müşavirədə "Ədəbiyyat tariximiz necə dövrləşdirilməlidir?" sualına Azadə Rüstəmova, Tehran Əlişanoğlu, Tahirə Məmməd, Hüseyn Həşimli, Səadət Şıxıyeva, Nazif Qəhrəmanlı kimi ədəbiyyatşünasların müxtəlif aspektlərdən verilmiş cavabları və geniş baxışları, fərqli yanaşmaları əks etdirən mülahizələri yüksək qiymətləndirilmişdir. Akademik İsa Həbibbəyli AMEA-nın müxbir üzvü Yaşar Qarayevi ədəbiyyat tarixinin dövrləşdirilməsində kompleks yanaşmalar nəzəriyyəsinin ilk müəllifi və ədəbiyyat tarixinin inkişaf mərhələlərinin müəyyən edilməsində özünəməxsus bölgüləri olan əvəzsiz bir ədəbiyyatşünas alim kimi böyük ehtiramla yad edir. Professorlar Baloğlan Şəfizadə, Elməddin Əlibəyzadə, Bədirxan Əhmədovun "Azərbaycan ədəbiyyatı tarixi", Şirindil Alışanlının "Müasir humanist təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı" tədqiqatları əhəmiyyətli elmi mənbələr kimi dəyərləndirilir.

"Azərbaycan ədəbiyyatı tarixinin yenidən dövrləşdirilməsi zərurəti" adlı hissədə ədəbiyyat tarixinin dövrləşdirilməsi haqqında elmi konsepsiyanın yaradılmasında 5 zəruri cəhət qeyd olunur. Bunlardan "Dövlət müstəqilliyi ideallarının işığında Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin vahid sisteminin yaradılması zərurətinin meydana çıxması" və "Dövrləşdirmədə dünyada gedən ədəbi-tarixi proseslərin nəzərə alınması zərurəti" daha çox diqqəti cəlb edir.

Akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası Azərbaycançılıq məfkurəsi, sivilizasiya faktoru, ədəbi-tarixi prosesin reallıqları, milli ədəbi cərəyanlar kimi dörd əsas prinsipin vəhdətinə əsaslanır. Bu yeni dövrləşdirmədə 10 əsas inkişaf mərhələsi fərqləndirilmişdir. Həmin inkişaf mərhələləri AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 2018-ci ildə nəşr etdirdiyi oncildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin I cildində "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" adı ilə öz əksini tapmışdır.

Xalq yazıçısı Anar bu günlərdə "Ədəbiyyat təşəbbüskeşi: İsa Həbibbəyli" adlı yazısında monoqrafiyadan danışarkən İsa müəllimin fədakarlığını, onun bir institutun işini gördüyünü qeyd etmişdir. Həqiqətən də, bu monoqrafiya ədəbiyyatşünaslıq elmində bu sahədə olan boşluğu doldurmaq, sistemsizliyi aradan qaldırmaq gücünə malikdir. Yeni nəşr uzun illərin axtarışlarının, gərgin əməyin və ümumiləşdirmələrin nəticəsidir.

Qeyd olunan inkişaf mərhələləri ilə Azərbaycan ədəbiyyatının dünya ədəbi prosesində şərəfli yerə malik olması sübut edilmiş və ədəbiyyatın xalqımızın işıqlı gələcəyə doğru inkişafına yol açacağına əminlik hissi ifadə olunmuşdur.

**Aygün ORUCOVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

## Bu il əsgərlərimizə 3000 cüt yun corab və 400 yun şərf hədiyyə edilib



*Muxtar respublikamızda uzun illərdir, davam edən ənənəyə uyğun olaraq sağlamlıq imkanları məhdud şəxslər tərəfindən hazırlanmış isti qış geyimləri çətin dağlıq şəraitdə Vətənimizin müdafiəsində və sərhədlərimizin qorunmasında ayıq-sayıq dayanan əsgərlərimizə hədiyyə edilir. Əsgərlərə növbəti isti qış geyimlərinin təqdim edilməsi də xalq-ordu birliyinin növbəti ifadəsidir.*

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar sentyabrın 7-də keçirilmiş müşavirədə hərbi hissələr üçün yun corabların toxunması işinin davam etdirilməsi tapşırılıb. Qarşıya qoyulan tapşırığın icrası istiqamətində sağlamlıq imkanları məhdud qadınlar tərəfindən toxunmuş 1500 cüt yun corab və 200 yun şərf əsgərlərimizə hədiyyə edilir. Corablardan 1000 cütü və şərflərdən 150-si Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə yerləşən bölmələrinə, 500 cüt yun corab və 50 şərf isə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına təhvil verilir.

Qeyd olunub ki, 2019-cu il ərzində əsgərlərimizə, ümumilikdə, 3000 cüt yun corab və 400 yun şərf hədiyyə edilib. Belə tədbirlər sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğunu təmin etməklə bərabər, onların maddi təminatlarının yaxşılaşmasına da müsbət təsir göstərir.

Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Elman Orucov tədbirdə çıxış edərək bildirib ki, Naxçıvanda yerləşən Ordu, birləşmə və hissələr hərtərəfli qayğı ilə əhatə olunub. Dövlətimiz tərəfindən göstərilən bu diqqət hərbi qulluqçuların məsuliyyətini daha da artıraraq onlarda vətənpərvərlik hisslərinin güclənməsinə səbəb olub. Əsgərlərə isti qış geyimlərinin təqdim edilməsi növbəti qayğının ifadəsi, xalq-ordu birliyinin təcəssümüdür.

Tədbirdə zabit Orxan Əliyev və əsgər Kamal Vəliyev hərbi qulluqçular adından göstərilən diqqət və qayğıya görə minnətdarlıq ediblər. Sonra yun corab və şərflər hərbi hissə və zastavalara təhvil verilib.

Bir məqamı da qeyd etmək yerinə düşər ki, ordumuzun hərbi hissələri dövlət qayğısı sayəsində hərtərəfli təminata malikdir. Yerli sakinlərin, xüsusilə də ailə təsərrüfatları başçıları və torpaq mülkiyyətçilərinin, sağlamlıq imkanları məhdud şəxslərin hərbçilərimizə ərzaq və geyim sovqatları göndərməsi isə ordumuzu güvənc yeri bilməsinin, qəlbi Vətən eşqi ilə döyünən vətəndaşlarımızın torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanan əsgərlərimizə sevgi və ehtiramının göstəricisidir. Deməli, əldə olunan uğurların, qazanılan zəfərlərin arxasında dövlət-xalq-ordu birliyi dayanır.

**Nəriman NƏCƏFOV**

## Xalq Teatrının 55 yaşı qeyd olunub



*Ordubad Rayon Mədəniyyət Sarayında bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova və Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış ediblər.*

Vurğulanıb ki, daim hərtərəfli dövlət qayğısı ilə əhatə olunan muxtar respublikanın xalq teatrları fəaliyyət göstərdikləri dövrlərdə kiçikhəcmli tamaşalar hazırlamaqla yanaşı, istər yerli, istərsə də dünya klassiklərinin yaradıcılığına da müraciət ediblər. Belə xalq teatrlarından biri də yaranmasının 55 illiyi qeyd olunan Kazım Ziya adına Ordubad Rayon Xalq Teatrıdır.

Bildirilib ki, 1964-cü ildən fəaliyyət göstərən teatra 1989-cu ildə – yaradılmasının 25 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının "Əməkdar kollektivi" fəxri adı verilib. Muxtar respublikada ilk xalq teatrı olan bu kollektiv zəngin repertuarı ilə hər zaman teatrsevərlərin rəğbətini qazanıb, muxtar diyarımızda teatr sənətinin inkişafına dəyərli töhfələr verib. Özünəməxsus yaradıcılığı ənənəsi olan teatr muxtar respublikada keçirilən mədəni tədbirlərdə uğurlu çıxışları ilə yadda qalıb, xalq teatrlarının muxtar respublika festivallarında iştirak edib, diplomlara layiq görülüb.

Mədəniyyət naziri Natəvan Qədimova və Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov muxtar respublikada teatr sənətinə göstərdiyi qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Çıxış edənlər Kazım Ziya adına Ordubad Rayon Xalq Teatrının yaradılmasının 55 illiyi münasibətilə teatrın kollektivini təbrik edib, bundan sonrakı fəaliyyətində yeni-yeni yaradıcılıq uğurları arzulayıblar.

Sonra kollektivin hazırladığı Hüseynbala Mirələmovun ikihissəli "Axirətdən gələn zəng" tamaşasına baxış olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Tədbir keçirilib



***Kəngərli rayonunun Çalxanqala kəndində "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda tədbir keçirilib. Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Səriyyə Qurbanova çıxışında belə tədbirlərin əhəmiyyətindən danışıb.***

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, yeni nəslin sağlam doğulması və böyüməsi üçün ailə planlaşdırılması məsələsinə xüsusi diqqət yetirilməsi, erkən nikahların fəsadları, sağlam uşaqların doğulması üçün qadınların hamiləlik dövründə müvafiq müayinələrdən keçirilməsinin vacibliyi haqqında tədbir iştirakçılarına məlumat verilib.

Ramilə Seyidova diqqətə çatdırıb ki, aparılan təhlillərə görə, Kəngərli rayonu üzrə 11661 uşaqdan 110-u sağlamlıq imkanları məhduddur.

"Qadınlarda virus hepatitlərinin fəsadları, bətndaxilindəki uşağın xəstəlikləri və onlarla mübarizə yolları" mövzusunda isə Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb elmləri üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva çıxış edib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Ömrünə xoş gəldi 60 yaş!

**Təzə bir nəğmə eşitmək istəyirsənmi, oxucu?! Bu nəğmənin misralarına və ahənginə əziz tutduğumuz, müqəddəs sandığımız müəllim-jurnalist əməyinin ətri hopubdur. Bu nəğmənin nəqəratı dünyanın incisi, gözəlliklər diyarı, Ordubadın qiymətli sərvətlərindən sayılan sarı limonun ətri kimi qəlboxşayan, fikirləri mavi səma kimi aydın, sözləri şipşirindi. Bu nəğmənin bəstəkarı həyat, vəsf olunanı isə ömrünün 60-cı baharına çatan müəllim-jurnalist Muxtar Məmmədovdur.**

**Bir insan ömründən danışmaq istəyirəm. Bu ömür bir vaxtlar Günəş olub fidan balalarımızın yollarına nur ələyib, saf və müqəddəs müəllim ömrü yaşayıbdır.**

**Bir insanın ömür kitabını vərəqləyirəm. Bu kitabın hər səhifəsinə xoş əməllər, xeyirxah işlər, müdrik sözlər yazılıbdır.**

**Bir insanın sevdiyi peşəsinə məhəbbət hisslərinin gücündən söz açmaq istəyirəm...**



Muxtar Məmməd oğlu Məmmədov 60 il bundan əvvəl – 1959-cu ildə Ordubad rayonunun Aza kəndində ziyalı ailəsində dünyaya göz açıb. Atası Məmməd müəllim dövrünün tanınmış pedaqoqlarından olub. Hələ orta məktəb illərində dilimizə və ədəbiyyata olan marağı Muxtar Məmmədovu Naxçıvan Dövlət Pedaqoji İnstitutunda (indiki Naxçıvan Dövlət Universiteti) ali təhsil almağa sövq edib. İmtahanları uğurla verib ali məktəbə qəbul olub və təhsilini başa vuraraq müəllimlik fəaliyyətinə başlayıb.

O, 1976-cı ildən 2002-ci ilin iyun ayınadək Ordubad rayonunun Aza və Azadkənd məktəblərində Azərbaycan dili və ədəbiyyatı müəllimi, tərbiyə işləri, sonralar isə tədris işləri üzrə direktor müavini vəzifələrində işləyib.

Böyüməkdə olan nəsillərin tərbiyəsi sahəsindəki fədakar, cəfakeş əməyinə görə 1996-cı ildə keçirilən müəllimlərin attestasiyasında Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi kollegiyasının qərarı ilə ona "Ali kateqoriyalı müəllim" adı verilib.

### *Mətbuata bağlı ömür*

Muxtar Məmmədov müəllim işlədiyi illərdə mətbuatla da sıx bağlı olub, onlarla müxtəlif mövzulu yazıları qəzet və jurnallarda dərc edilib. Bu sənətə olan marağı nəzərə alınaraq 2002-ci ildə "Şərq qapısı" qəzetinə işə dəvət olunub. Çətin və şərəfli jurnalist peşəsinə qəlbən bağlanan Muxtar müəllim 18 ildir ki, "Şərq qapısı" qəzetində çalışır və hazırda bu mötəbər qəzetin məsul katibidir.

Muxtar müəllim cəmiyyətdə ictimai fikrin formalaşmasında çox fəal rola malik jurnalistikanın ayrılmaz tərkib hissəsi olan publisistika sahəsində bir çox uğurlu yazılara imza atıb. "Şam ömrünün nağılı" kitabından sonra "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində 2018-ci ildə çap etdirdiyi "Mənim Naxçıvan dünyam" adlı ikinci kitabında toplanan "Müsahibələr", "Bir-birinə bənzəməyən həyat yolları", "Sərbəst", "Esselər", "Stolüstü kitablarım", "Gəzdiyim yurd yerləri" bölmələrindəki yazılarda müstəqil dövlətçiliyimizə sədaqət, milli-mənəvi dəyərlərin qorunması ana xətti təşkil edir.

Jurnalistikanın ən çətin və məsuliyyətli janrlarından biri də müsahibədir. Bir çox qələm sahibləri bu janrda yazsalar da, uğur qazana bilməyiblər. Ancaq Muxtar Məmmədov "Heydər Əliyev mübarizliyi xalqımızı düşdüyü bəlalardan qurtardı", "Vətən, dövlət, millət ən böyük milli dəyərlərimizdəndir", "Naxçıvanın bugünkü inkişaf və tərəqqisi hər bir azərbaycanlının qürur mənbəyidir", "Novruz bayramının Azərbaycanda dövlət səviyyəsində qeyd olunması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır", "Bu yurdun gözəlliyi heç bir bölgə ilə müqayisəolunmaz" adlı müsahibələrində fikirlərini yaradıcılığına xas olan tərzdə ifadə etməsi ilə seçilib.

Həyatda bir-birinə oxşayan insanlar olmadığı kimi, bir-birinə bənzəyən həyat yolları da yoxdur. Muxtar Məmmədovun yaradıcılığının məhsulları olan oçerkləri də bir-birinin təkrarı deyil. Jurnalist dostlarının hər birinə xas olan xüsusiyyətləri ön plana çəkməklə onların zəhmətdən yoğrulmuş portretlərini öz qələmi ilə yaratmışdır.

Şərur Rayon İcra Hakimiyyətinin orqanı olan "Şərurun səsi" qəzetinin redaktoru, Azərbaycan Respublikasının Əməkdar jurnalisti Elman Məmmədovun ad gününə yazdığı "Mətbuatda keçən ömür", "Şərq qapısı" qəzetinin uzun illər baş redaktoru və Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuş, Əməkdar mədəniyyət işçisi Səxavət Kəngərlinin ömür yoluna həsr etdiyi "Ömrünün mənasını mətbuatda tapan jurnalist", Azərbaycan Respublikasının Əməkdar jurnalisti, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Nurəddin Babayev barədə dərc etdirdiyi "Ağsaqqal jurnalistlə yarım saatlıq söhbət" kimi oçerklərin dili aydın və şirin, gətirilən faktlar düzgün və maraqlıdır. Bu kimi yazıları oxuyan oxucu həm daxili dünyası işıqlandırılan qəhrəmanı, həm də daxili dünyanı işıqlandıran müəllifi görür.

Muxtar Məmmədovun "Mənim Naxçıvan dünyam" adlı kitabında, qəzet və jurnal səhifələrində dərc olunan esseləri ona görə sevilə-sevilə oxunur ki, bu bədii nümunələrdə həm informasiya var, həm də bədii yanaşma. "Başını uca tut, Azərbaycan", "Böyük ana haqqında düşüncələr", "Xocalı, ay Xocalı", "Özgə bir payızdır bu gələn payız", "Müdhiş gecə haqqında düşüncələr" kimi esseləri həyəcansız oxumaq olmur.

Muxtar Məmmədovun janrından asılı olmayaraq, qələmindən çıxan yazılar iş otağında ərsəyə gəlmir. Onlar qarış-qarış gəzdiyi yurd yerlərində qələmə alınır. Ümumiyyətlə, muxtar respublikamızın elə bir guşəsi yoxdur ki, Muxtar Məmmədov orada olmasın və gördüklərini işıqlandırmasın. O, muxtar respublikada yaşayan ədəbiyyat, incəsənət və mədəniyyət sahəsində çalışan yaradıcı adamların müəllifləri olduqları kitablar, almanaxlar, toplular haqqında öz rəyini bildirir, oxuculara təqdim edir.

### *Muxtar Məmmədov: "İllər, sizdə nəyim qaldı?!"*

...İllər, sizdə nəyim qaldı: İlk addımlarımın ləpirləri, ayna gözlü bulaqlardan su içəndə baxışlarım, dağların gədiklərində açdığım cığırlar...

Orta məktəb dünyamdan şirin-şirin xatirələr, şagird hörməti, müəllim məhəbbəti qalıb sizdə. Ana yurdumun dilbər bir guşəsində vətəndaşlıq borcumu vermişəm, boyabaşa çatdığım kənddə həmyerlilərimin mənə göstərdikləri etimadı doğrultmuşam. Qəlbən inanmışam ki, dünyada ən müqəddəs peşə müəllimlikdir. Və bu peşənin arxasınca getmişəm, müəllim kimi çalışmışam, gül balaların təlim-tərbiyəsi ilə məşğul olmuşam.

2002-ci ildə məni "Şərq qapısı" qəzetinə işə dəvət edəndə Aza kəndindən Naxçıvan şəhərinə köçdüm. İllər boyu şəhərin müxtəlif məhəllələrindəki evlərdə kirayə yaşadım.

İllərin birində – 2011-ci ilin noyabr ayında doğma "Şərq qapısı" qəzetinin 90 illik yubileyi dövlət səviyyəsində qeyd olunanda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən fəaliyyətim yüksək qiymətləndirilərək mənə ikiotaqlı mənzil hədiyyə edilməsi həyatımın heç vaxt yaddan çıxmayacaq ən gözəl anına çevrildi.

Yenə də ayağı sayalı illərin birində – 2015-ci ilin iyul ayının 15-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görüldüm. Bu təltif illər uzunu mətbuat sahəsində çəkdiyim zəhmətə verilən yüksək qiymətdir.

Və ötən il – 2018-ci ildə publisistik yazılarımdan ibarət "Mənim Naxçıvan dünyam" adlı kitabı oxucularıma təqdim etdim. Ona görə ki, yazdıqlarım kitab şəklində övladlarımın, nəvələrimin, dostlarımın, oxucularımın, qəhrəmanımın pərəstişkarlarının rəflərində yer tapsın, onların həmişə xatırlanan kitabı olsun.

Budur, 60 illik ömrüm! Xoş gəldin ömrümə, 60 yaşım!...

Bunlar şərəfli ömür yaşayan bir insanın mənəvi hesabatıdır.

### *Son söz: "Qələbə reportajlarını oxuyaq"*

Ömrünün müdrik çağına çatan Muxtar Məmmədov məsul katib vəzifəsində çalışdığı "Şərq qapısı" qəzetinin hər bir sayının məzmunlu və yüksəkkeyfiyyətli tərtibatla çıxmasında yaxından iştirak edir. O, gənc jurnalistlərdən də köməyini əsirgəmir. Onların gələcəyin peşəkar qələm sahibləri kimi yetişmələri üçün əlindən gələni edir, dəyərli məsləhətlərini verir.

*Biz də qələm dostumuzu ömrünün müdrik çağına – 60 yaşına çatması münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq. Qoy Muxtar Məmmədovun imzası ilə Odlar Yurdu Azərbaycanımızdan, onun ən qədim və ayrılmaz hissəsi olan doğma Naxçıvanımızdan uğur dolu, xoş müjdələr soraqlı yazılar, qələbə reportajları dərc edilsin.*

**İbrahim YUSİFOĞLU**
***Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, Prezident mükafatçısı, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı***

## Paralimpiyaçılar yüksək nəticələr əldə ediblər

Bu yaxınlarda Bakı şəhərində Abşeron Olimpiya İdman Kompleksində keçirilən V Respublika Uşaq Paralimpiya İdman Oyunlarında iştirak edən muxtar respublika Paralimpiya Federasiyasının təmsilçiləri diyarımıza medallarla qayıdıblar. İdmançılarımızdan Zahir İbrahimov Uşaq Paralimpiya İdman Oyunlarının boccia növünün iki müxtəlif kateqoriyası üzrə yarışın qalibi adını qazanıb. Yarışda iştirak edən federasiyanın digər təmsilçiləri – stolüstü tennis üzrə Nihal İmanov, üzgüçülük müsabiqəsində isə Hüseyn Abdullayev yüksək nəticələr göstərərək bürünc medallara layiq görülüblər.

Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının təşkilatçılığı ilə V Respublika Uşaq Paralimpiya İdman Oyunlarında uğurlu nəticələr əldə edən sağlamlıq imkanları məhdud uşaqlarla görüş keçirilib. Görüşdə çıxış edən federasiya sədri Nicat Babayev muxtar respublikada idmanın inkişafı üçün yaradılan şəraitdən və əldə edilən uğurlardan danışıb.

Sonra yüksək nəticələr göstərən sağlamlıq imkanları məhdud uşaqlar hədiyyələr və fəxri fərmanlarla təltif olunub, onların valideynləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## İntellektual oyunlar üzrə çoxnövçülük turniri başa çatıb



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Gənclər Fondunun birgə təşkilatçılığı ilə gənc dövlət qulluqçuları arasında Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş intellektual oyunlar üzrə çoxnövçülük turniri başa çatıb.

Qeyd edək ki, turnir bu sahədə indiyədək keçirilmiş ən genişmiqyaslı tədbirlərdən biridir. Yarışda ilk dəfə olaraq 31 dövlət orqanından 186 gənc dövlət qulluqçusu iştirak edib. Turnirin yekun mərhələsi olan "Xəmsə" intellektual oyununun nəticələrinə görə Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi birinci, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi ikinci, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi isə üçüncü yerləri tutublar.

Qalib komandalara kubok, medal, diplom və fəxri fərmanlar təqdim olunub, onlara "Saat Meydanı" turistik istirahət mərkəzində yemək kuponları hədiyyə edilib.

**Xəbərlər şöbəsi**

## Boksçularımızdan iki medal



Kişi boksçular arasında Azərbaycan çempionatı başa çatıb. Ölkənin müxtəlif şəhər və rayonlarının klublarını, həmçinin idman cəmiyyətlərini təmsil edən yarışda 29 komandanın 109 boksçusu qüvvəsini sınayıb. 6 gün davam edən turnirdə 8 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşdirilib.

Boks mərkəzində təşkil olunan çempionatda Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının idmançıları da mübarizə aparıblar. Belə ki, 69 kiloqram çəki dərəcəsində rinqə çıxan Sərxan Əliyev final görüşündə Sumqayıt təmsilçisi Vüsal Əliyevi məğlub edərək ölkə çempionu adına layiq görülüb. 57 kiloqram çəki dərəcəsində təmsilçimiz Tayfur Əliyev isə çempionatın gümüş medalını qazanıb.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Tarix və mədəniyyət abidələrini qəsdən məhvetmə və ya korlama hansı məsuliyyətə səbəb olur?*

***Cavab:*** Azərbaycan Respublikası Konstitusiyasına əsasən tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur. Abidələrin bədii-estetik görkəminin dəyişdirilməsi, uçurulması və onlar üçün təhlükə yarada biləcək təmir, inşaat, təsərrüfat və digər işlərin aparılması qadağandır. Lakin bəzən vətəndaşlar tərəfindən tarix və mədəniyyət abidələrini qəsdən məhvetmə və ya korlama hallarına yol verilir, bu abidələr üzərində müəyyən yazılar yazılır. Bu isə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyətə səbəb olur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 246-cı maddəsinə əsasən dövlət tərəfindən mühafizə olunan tarix və mədəniyyət abidələrini qəsdən məhvetmə və ya korlama iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Həmçinin İnzibati Xətalar Məcəlləsinin 231-ci maddəsinə əsasən mədəni və təbii irsin, o cümlədən "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanuna uyğun olaraq tarix və mədəniyyət abidələrinin qorunması və istifadəsi üzrə tələblərin pozulmasına görə xəbərdarlıq edilir və ya fiziki şəxslər əlli manatdan yüz, vəzifəli şəxslər iki yüz əlli manatdan üç yüz, hüquqi şəxslər isə min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir. Yuxarıda nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbehvermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə isə fiziki şəxslər iki yüz, vəzifəli şəxslər beş yüz, hüquqi şəxslər isə üç min manat məbləğində cərimə edilir. Qeyd olunan əməllər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda bu inzibati tənbeh tətbiq edilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Növbəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 813